# Son ana qədər səngərdən çıxmayan Əhməd Məmmədov - Şəhadətindən 31 il ötür

***11 aprel Birinci Qarabağ savaşının şəhidi Əhməd Məmmədovun şəhadətə yüksəlməsinin 31-ci il dönümüdür.***

Şəhidimiz 1959-cu il aprelin 1-də Cəbrayıl rayonunun Hacılı kəndində doğulub. 1965-ci ildə orta məktəbə gedib, 1975-ci ildə məktəbi bitirib. Onu uşaqlıqdan tanıyan adamlar deyirlər ki, Əhməd Məmmədov uşaq yaşlarından erməniləri qəbul etmirdi. Rayon və kənd ərazisində erməni görəndə onlarla dava etməyə çalışırdı. Soruşanda niyə belə edirsən, hələ 8 yaşı olan Əhməd Məmmədov deyirdi ki, onların üzündən yaxşı adam olmadığı görünür. Onlar bura gəlməsinlər deyirdi.

10 illik orta təhsili bitirəndən sonra oxuyub və işləmək üçün Sumqayıta gəlir. Gənc şəhəri sevən Əhməd Məmmədov digər yerdə yox məhz Sumqayıtdakı Kimya Texnologiya texnikumunda oxumaq istəyir. Həmin il sənədlərini həmin texnikoma verir, lakin sonra təhsilini davam etdirmir, sovet təhsil sistemində qohumluq və rüşvəti görüb daimi etiraz edir, ədaləti tələb edir, lakin o zamankı sistem onun haqsızlığa qarşı etirazını bildirdiyi üçün cəzalandırır, o isə cəzanı qəbul etməyib texnikumu yarımçıq qoyur. Sonra hərbi xidmətə yollanır. Macarıstanda xidmət edir. Hərbiyə marağı olduğuna görə müxtəlif təyinatlı bölüklərdə olur. Həm rabitə, həm artileriya üzrə hərbi bacarıqlarına görə seçilir. Orduda qalıb xidmətini davam etməsini komadrileri neçə dəfə təklif etsə də "Azərbaycansız yaşaya bilmərəm" deyib. 1979-cu ildə hərbi xidmətini başa vurub geri qayıdır.



Əmək fəaliyyətinə Sumqayıtda Sintez kauçuk zavodunda başlayır.

1993-cü ildə Cəbrayılın işğalından sonra könüllü olaraq, Milli Ordu sıralarına qoşulur. Elə yaşadığı Sumqayıt batalyonuna yazılır. Ailəli, üç övladı olmasını ona deyib arxa cəbhədə qalmasını təklif edirlər. Lakin o heç kimi eşitmir "Qarabağ kişilər yurdudur və qarabağı da oranın kişiləri qorumalıdır" deyib inad edir.

O, Ağdamın Papravənd, Çəmənli, Güllücə kəndləri ərazisində gedən döyüşlərdə iştirak edir. Döyüş yoldaşlarının söhbətlərinə görə, onun xüsusi hərbi bacarığı nəticəsində onlarla düşmən əsgəri məhv edilib. Gənc əsgərləri sinəsi ilə qoruyurdu. Şahidlər deyirlər ki, ən çox atəşə məruz qalan əraziyə gedib gənc əsgərləri ordan çıxardır, özü təkbaşına düşmənə qarşı savaşırdı, neçə neçə gənci ağır döyüş bölgəsindən xilas edib.

11 aprel 1994-cü ildə Ağdam rayonunun Çəmənli, Güllücə, Gültəpə yüksəklikləri və kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlər o qədər ağır keçir ki, Bakıdan belə xəbər verirlər ki, geri çəkilin, özünüzü ölümə verməyin. Amma heç bir kəs geri çəkilmək istəmir. Döyüş zamanı üç güllə yarası alır, lakin döyüş yerini tərk etmir və qəhrəmancasına həlak olur. Şahidlərin dediyinə görə onun şəhidlik zirvəsinə ucaldığı anda əlində bir ovuc torpağı sıxıb saxlamışdı. Əhməd Məmmədov Sumqayıt şəhərində dəfn edilib.